# Xocalı faciəsinə həsr olunmuş tədbir




Xocalı soyqırımının 27-ci ildönümü ilə bağlı Nəsimi rayonu Texniki Hümanitar liseydə tədbir keçirildi. Çoxlu sayda qonaqların iştirak etdiyi tədbir dövlət himnimizin səsləndirilməsi və şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı.

Tədbirdə çıxış edən məktəbin direktoru Səidə Zeynalova qeyd etdi ki, yaxın tariximizin faciəli səhifələrindən biri kimi Xocalı soyqırımı xalqımızın qan yaddaşına əbədi həkk edilmişdir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə həlak olanlar xalqımızın milli azadlığı yolunda apardıqları mübarizənin qurbanlarıdır, şəhidlərdir. Həmin gecə azğınlaşmış erməni hərbçiləri 7 min nəfər əhalisi olan, Azərbaycanın qədim yaşayış məntəqələrindən biri Xocalı şəhərinə vəhşicəsinə hücum etdilər, heç kimə aman vermədən dinc əhalini kütləvi şəkildə məhv etdilər, şəhər sakinlərinə ağlasığmaz qəddarlıqlar etdilər, amansız qırğınlar törətdilər. Bu iyirminci yüzilliyin ən qəddar və amansız cinayətlərindən biri, Xocalı faciəsi bəşər tarixində analoqu olmayan dəhşətli soyqırımı idi. Cinayətkar erməni hərbi quldurlarının Azərbaycan xalqına etdiyi vəhşilik nəticəsində 613 nəfər Xocalı sakini qətl edildi, 1275 nəfər əsir götürüldü, 1000-dən çox sakin yaralandı və şikəst oldu. Bunlardan 106 nəfəri qadın, 63 nəfəri isə azyaşlı uşaqlar, 70 nəfəri isə qocalar idi. Şikəst olanların 76 nəfəri yetkinlik yaşına çatmamış oğlanlar və qızlar idi. Ermənilərin törətdiyi bu vəhşi cinayətdə 56 nəfər xüsusi amansızlıq və qəddarlıqla öldürülmüş, diri-diri yandırılmış, başlarının dərisi soyulmuş, başları kəsilmiş, gözləri çıxarılmış və bir sözlə ağlasığmayan, qeyri-insani cinayətlər etmişlər.

Azərbaycan xalqının məhvinə yönəldilmiş Xocalı müsibəti erməni millətçilərinin məqsədyönlü soyqırımı siyasətinin davamıdır. Xalqımıza qarşı zaman-zaman dəhşətli qırğınlar törədərək torpaqlarımızı ələ keçirməyə çalışmışlar, “böyük Ermənistan” yaratmağa ciddi cəhdlər etmişlər. Ərazimizin 20 faizini zəbt edən ermənilər 1 milyon 200 mindən artıq həmyerlimizi məcburi qaçqına, köçkünə və didərdinə çevirmişlər.

Direktor vurğuladı ki, insanlarımıza qarşı törədilmiş bu qatı cinayət əməllərinə yalnız ulu öndərimiz Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra hüquqi-siyasi qiymət verildi və 1994-cü il fevralın 24-də Milli Məclisdə Xocalı soyqırımı ilə bağlı qərar və bəyanət qəbul edildi və dünya parlamentlərinə, beynəlxalq təşkilatlara göndərildi. Bu gün təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş uğurlu xarici siyasət diplomatiyası Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam və inkişaf etdirilir. Bunun nəticəsində Azərbaycan xeyrinə bir çox beynəlxalq əhəmiyyətli sənədlərin qəbul edilməsinə nail olunub. Cənab İlham Əliyevin apardığı uğurlu sosial-iqtisadi inkişaf kursu bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da böyük inkişafa səbəb olub. Bu gün Azərbaycan ordusu dünyanın ən güclü orduları sırasındadır və Ali Baş Komandan əmr versə, az bir zaman kəsiyində işğal altında olan əzəli Azərbaycan torpaqlarını azad etmək iqtidarındadır və bu tarixi gün çox da uzaqda deyil.

Sonra söz məktəbin şagirdlərinə verildi. Məktəbin 5 ç və 6 c sinif şagirdləri Cavidan İbrahimli, Xədicə Salmanova, Fatimə Kərbalıyeva, Əsmər Seyidova, Ayxan Əliyev, Aysu Qurbanova, Leyla Məmmədli, Leyla İsmayılova, Telli Rəhimli və Nigar Bağırova “Xocalı” kompozisiyası hazırlamışlar.

Bundan başqa, 5 c sinif şagirdləri Aysu Məmmədova, Aysun Abdullayeva, Fərəh Abbasova, Arzu Məmmədova, Nəzrin Mirzəyeva, 5-6 siniflərin xor qrupu Xədicə Salmanova, Əsmər Seyidova Xocalıya aid yazdıqları şeirlərini, Zəhra Musayeva və Hüseyn Hüseynzadə də Xocalıda baş vermiş soyqırıma həsr edilmiş kompozisiyalarla çıxış etdilər. Onlar 1992-ci ilin 26 fevralında Xocalıda erməni quldurları tərəfindən dinc əhaliyə qarşı törədilmiş qətliamda şəhid olmuş soydaşlarımızın əziz xatirəsinə həsr olunmuş şeir kompozisiyaları ilə şıxış etdilər, həmin gecədə erməni vəhşiliklərini əks etdirən səhnəciklər nümayiş etdirdilər. Məktəb şagirdlərinin çıxışları tədbir iştirakçıları tərəfindən gurultulu alqışlarla qarşılandı.



Tədbir iştirakçıları təşkilatçılar Kəmalə İbrahimovaya və İranə Məhərrəmliyə təşəkkürlərini bildirdilər.

**Əli SADIQOV,**
**“Respublika”.**